Ədəbiyyat qəzeti



# Dəyərli alim və şəxsiyyət

*Sentyabr ayının 27-də təcavüzkar Ermənistan Respublikasının silahlı qüvvələri ölkəmizə qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladı. Möhtərəm Prezident, cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirməsi, uzun illərdir işğal altında qalan torpaqlarımızın azad olunması, Qələbə xəbəri bu gün hər birimizdə böyük qürur hissi yaradır. Bizə bu Qələbə sevincini bəxş edən Ali Baş Komandanımızla, igid oğullarımızla fəxr edirik! İşğaldan azad edilən torpaqlarımızda müqəddəs üçrəngli bayrağımız dalğalanır bu gün.*

*8 noyabr 2020-ci il tarixində Azərbaycanın tarixi mədəniyyət mərkəzi sayılan doğma Şuşamız işğaldan azad edildi. Şuşa özünün görkəmli şəxsiyyətləri ilə həmişə qürur duyub. Belə məşhur şəxsiyyətlərdən biri də müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, ictimai xadim, Xalq yazıçısı, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, birinci dərəcəli dövlət müşaviri, Azərbaycan Dillər Universitetinin rektoru, əslən şuşalı olan Kamal Abdulladır. 300-ə yaxın elmi və publisistik məqalə, 20-dən çox dərs vəsaiti və monoqrafiyanın müəllifi olan Kamal Abdullanın bu əsərləri Azərbaycanda və dünyanın 20-dən artıq ölkəsində çap olunmuşdur. Fransa, Rusiya, Türkiyə, Braziliya, Polşa, Misir, Amerika, Qazaxıstan, Avstriya, Qırğızıstan, İtaliya və başqa ölkələr onların sırasındadır.*

*Öz yaradıcılığı ilə ədəbiyyatımıza çoxlu maraqlı yeniliklər gətirən Kamal Abdulla filoloq və yazıçı kimi bədii yaradıcılığında özünəməxsus üslubu ilə həmişə seçilir.*

*Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri kimi çalışdığı dövrlərdə Kamal Abdullanın səmərəli fəaliyyəti sayəsində Azərbaycan multikulturalizmi 20-dən çox xarici ölkədə tədris olunmağa başlamışdır.*

*Azərbaycan Dillər Universitetinin rektoru kimi Kamal Abdulla gənc kadrların yetişdirilməsi istiqamətində əsl vətənpərvər kimi bilik və bacarığını əsirgəmir.*

*"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" idarə heyətinin üzvü kimi Kamal Abdulla ilə 10 ildən artıq bir yerdə çalışmışıq. Kamal müəllim hər zaman Ermənistan Respublikası tərəfindən Azərbaycanın ərazi bütövlüyünün və insan hüquqlarının pozulması, dünya mədəniyyətinin nümunələri sayılan memarlıq abidələrinin dağıdılması, mənimsənilməsi və beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə zidd olması məsələlərinin dünya birliyinə çatdırılması istiqamətində əməli fəaliyyət göstərmişdir.*

*4 dekabr 2020-ci il tarixində yazıçı, akademik Kamal Abdullanın 70 yaşı tamam olur. Bu yubiley münasibətilə böyük şəxsiyyət, zəngin ədəbi yaradıcılığı olan, sadə, təvazökar, xeyirxah insan, görkəmli pedaqoq Kamal Abdullanı təbrik edir, Azərbaycan dilinin tədqiqi, ədəbiyyatımızın inkişafı və gənc kadrların yetişdirilməsi istiqamətində ona möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*

*Bu gün Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı qələbələr bir daha sübut edir ki, artıq xalqımızın dillər əzbəri və milli şüarımız olan, cənab Prezident İlham Əliyevin dediyi kimi "Qarabağ Azərbaycandır!".*

**Bayram SƏFƏROV**,
*Şuşa Rayon İcra Hakimiyyətinin başçısı*